# I FƏSİL

## YERALTI[1]

### I

Mən xəstə insanam… Mən pis insanam. Cazibədar insan deyiləm. Fikrimcə, qara ciyərim xəstədir. Əslində xəstəliyimdən qəti başım çıxmır, heç haramın ağrıdığını da dəqiq bilmirəm. Tibbə, həkimlərə hörmətim olsa da, müalicə olunmuram, heç vaxt da müalicə olunmamışam. Həm də ifrat dərəcədə azadam: ən azı tibbə hörmət edəcək qədər. (Azad olmayacaq qədər savadlıyam, amma yenə də azadam). Yox, hirsimdən müalicə olunmaq istəmirəm. Yəqin bunu başa düşmək istəməyəcəksiniz. Hə, amma mən başa dü-

[1] Şübhəsiz, məktubların müəllifi də, «məktublar» da uydurmadır. Amma yenə də cəmiyyətimizin quruluşunu təşkil edən fikirləri nəzərə alanda bu cür məktubların müəllifi kimi şəxsiyyətlər cəmiyyətimizdə nəinki var, hətta olması vacibdir. Mən kütlənin qarşısında bir qədər keçmişdə qalmış dövrün adi xarakterlərindən birinin fikirlərini açmaq istəmişəm. Bu, hələ də yaşamaqda olan son nəslin nümayəndələrindən biridir. «Yeraltı» adlanan bu hissədə bu şəxs özünü və baxışlarını təqdim edir, sanki bizim aramızda niyə yarandığını və niyə yaranmalı olduğunu izah edir. Növbəti fəsildə bu şəxsin həyatından bəzi hadisələr barədə həqiqi məktublar olacaq. *Fyodor Dostoyevski*

şürəm. Şübhəsiz, bu vəziyyətdə qəzəbimlə kimə pislik edəcəyimi sizə başa sala bilmərəm; müalicə olunmaq üçün yanına getmədiyim həkimlərə də heç bir pislik etmədiyimi, bununla pislik edəcəyim yeganə insanın da heç kim deyil, özüm olduğumu da yaxşı bilirəm. Amma yenə də müalicə olunmuramsa, bunu acığımdan edirəm. Qara ciyərim ağrıyır, eybi yoxdur, qoy bir az da bərk ağrısın!

Çoxdan – iyirmi ildir belə yaşayıram. İndi qırx yaşım var. Əvvəllər işləyirdim, indi işləmirəm. Qəddar məmur olmuşam. Kobud idim və bundan zövq alırdım. Axı rüşvət almırdım, özüm, heç olmasa bununla mükafatlanmalıydım. (Pis söz oldu; amma bunu silən deyiləm. Yazanda çox kəskin alınacağını fikirləşmişdim; indi, özüm də murdar təşəxxüs göstərmək istədiyimi görürəm, amma qəsdən silməyəcəm!) Masamın yanına kimsə yaxınlaşıb, deyək ki, arayış istəyəndə, ona dişlərimi qıcayırdım, kiminsə qanını qaralda biləndə isə bundan çox böyük zövq alırdım. Buna, demək olar həmişə nail olurdum. Yanıma gələnlərin əsas hissəsi çəkingən xalq nümayəndələri idi. Xahişə kimlərin gəldiyi aydın məsələdir. O sırtıqların arasında bir zabitdən lap zəhləm gedirdi. Heç cür boyun əymək istəmir, qılıncına arxayın olub iyrənc şəkildə guruldayırdı. Bu qılınca görə il yarım onunla müharibə apardım. Axırda məğlub etdim. Guruldamağı qurtardı. Bu məsələ cavanlığımda baş vermişdi. Cənablar, amma bilirsinizmi mənim acığımın əsas səbəbinin

nə olduğunu? Bəli, bu balaca murdarlığın səbəbi hər dəqiqə, hətta ən acıdil anlarımda belə xəcalət içində nəinki qəddar, heç qəzəbli də olmadığımı, nahaq yerə sərçələri qorxudub, bununla özümə təsəlli verdiyimi dərk etməyimlə bağlı idi. Ağzımın kənarları həmişə köpüklüdür, lakin mənə bir dənə oyuncaq gətirin, ya da şirin çay verin, yəqin, sakitləşərəm. Hətta ürəyim də yumşalar, düzdür, yəqin sonra da özümə dişlərimi qıcayacaq və xəcalətdən bir neçə ay yuxusuzluqdan əzab çəkərəm. Adətim belədir.

Bayaq özüm barədə qəddar məmur olduğumu deyəndə yalan danışırdım. Acığımdan yalan danışırdım. Əslində xahişə gələnlərlə də, zabitlə də ərköyünlük edirdim, əslində isə heç vaxt ürəkdən qəddar ola bilmirdim. Hər dəqiqə özümdə buna zidd olan çox, lap çox detal kəşf edirdim. Bu zidd detalların daxilimdə sanki qaynadığını hiss edirdim. Həmişə içimdə qaynadıqlarını, üzə çıxmağa can atdıqlarını bilirdim, amma onları buraxmırdım, buraxmırdım, qəsdən üzə çıxmağa qoymurdum. Onlar mənə xəcalət çəkəcək qədər əzab verirdilər; qıc olmaya qədər çatdırırdılar və ən nəhayət bezdirdilər, həm də çox bezdirdilər! Cənablar, bəlkə sizə elə gəlir, indi qarşınızda nəyəsə görə peşmançılıq çəkirəm, ya da nəyəsə görə sizdən üzr istəyirəm?... Sizə elə gəlir, əminəm... Amma düzü, lap sizə elə gəlsə də mənim üçün heç fərqi yoxdur…

Nəinki qəddar, əslində heç nə ola bilmədim: nə qəddar, nə xeyirxah, nə alçaq, nə vicdanlı, nə qəh-

rəman, nə həşərat. İndi öz küncümdə ömrümü başa vurarkən, acıqlı və heç nəyə yaramayan bəhanə ilə özümə təsəlli verirəm, guya ağıllı adam ciddi şəkildə heç nə ola bilməz, ancaq axmaq adam nəsə ola bilər. Hə, on doqquzuncu əsrin ağıllı adamı iradəsiz insan olmalıdır və mənən bu cür məxluq olmağa borcludur; keyfiyyətli insan isə yaradıcı, daha çox dar düşüncəli məxluq olmalıdır. Bu mənim qırx illik əqidəmdir. İndi mənim qırx yaşım var. Amma qırx yaş bütün ömür deməkdir, bu axı əsl qocalıqdır. Qırxdan sonra yaşamaq ədəbsizlikdir, bayağılıqdır, əxlaqsızlıqdır! Kim qırx yaşdan çox yaşayır, axı? Səmimi cavab verin, olar? Deyim kim yaşayır: axmaqlar və alçaqlar yaşayır. Bunu bütün qocaların üzünə deyərəm, bütün o gümüşü saçlı, xoş ətirli, hörmətli qocaların hamısına! Bütün dünyanın üzünə deyərəm! Bunu deməyə haqqım var, çünki özüm də altmış yaşıma qədər yaşayacam. Yetmiş yaşıma qədər yaşayacam! Səksən yaşıma qədər yaşayacam!... Dayanın! Qoyun nəfəsimi dərim…

Cənablar, yəqin sizi güldürmək istədiyimi düşünürsünüz, hə? Bunda da səhv edirsiniz. Düşündüyünüz qədər, ya da bəlkə düşünmədiyiniz qədər də maraqlı insan deyiləm; əgər bütün bu çərənçilikdən əsəbiləşirsinizsə (mənə qalsa artıq əsəbi olduğunuzu hiss edirəm), onda zəhmət çəkib sual verin: mən axı kiməm? O zaman sizə cavab verərəm – mən kollec məsləhətçisiyəm. Bir qarın yeməyə xidmət etmişəm

(ancaq bunun üçün). Ötən il uzaq qohumlarımdan biri mənəvi vəsiyyətnamə ilə mənə altı min rubl miras qoyduqdan sonra isə dərhal istefaya çıxıb, öz küncümə çəkildim. Əvvəllər də bu küncdə yaşayırdım, indi isə bu küncdə məskunlaşmışam. Otağım köhnə və eybəcərdir, şəhərin kənarında yerləşir. Qulluqçum qoca, axmaqlığından qəddarlaşmış kənd arvadıdır, üstəlik də ondan həmişə murdar iy gəlir. Deyilənə görə, Peterburq iqlimi get-gedə səhhətimə ziyan vurur, həm də mənim cüzi vəsaitimlə Peterburqda yaşamaq çox baha başa gəlir. Bütün bunları özüm də bilirəm, həm də o müdrik məsləhət verənlərdən də, baş yellədənlərdən də yaxşı bilirəm, Amma mən Peterburqda qalıram! Peterburqdan köçməyəcəm! Ona görə köçməyəcəm ki… Eh! Guya nə əhəmiyyəti var axı, köçəcəm, ya köçməyəcəm.

Belə baxanda, ləyaqətli insan nə barədə böyük məmnuniyyətlə danışa bilər?

Cavab: özü barədə.

Ona görə mən də özüm barədə danışacağam.

## II

Cənablar, bunu eşitmək istəsəniz də, istəməsəniz də indi sizə niyə heç həşərat belə ola bilmədiyim barədə danışmaq istəyirəm. Təntənəli şəkildə dəfələrlə həşərat olmaq istədiyimi bildirim. Amma heç buna

da layiq ola bilməmişəm. Cənablar, sizə and içirəm, həddindən artıq dərk etmək xəstəlikdir, həqiqi və dolğun xəstəlik. İnsanın yaşayışı üçün adi insan zəkası artıqlaması ilə kifayət edərdi, yəni bizim bədbəxt on doqquzuncu əsrin inkişaf etmiş, üstəlik də nəsibinə yer kürəsinin ən mücərrəd və ən düşüncəli şəhəri olan Peterburqda yaşamaq bədbəxtliyi düşmüş insanın payına düşən zəkanın yarısı, hətta dörddə biri bəs edərdi. (Şəhərlər də düşüncəli və düşüncəsiz olur). Məsələn, belə adlandırmaq olarsa, bütün səmimi insanların və xadimlərin malik olduqları düşüncə tamamilə kifayət edə bilərdi. Mərc gələrəm ki, bütün bunları təşəxxüsümdən, tanınmış şəxslərə sataşmaq üçün yazdığımı, hətta ədəbsiz lovğalıqla mənim zabitim kimi qılıncımla guruldadığımı düşünürsünüz. Amma, cənablar, axı kim xəstəlikləri ilə lovğalana, hələ üstəlik nazlana bilər?

Axı, mən nə danışıram? Hamı bunu edir; xəstəlikləri ilə lovğalanır, mən isə, yəqin, hamıdan çox. Mübahisə etməyək; etirazım mənasızdır. Yenə də nəinki həddən artıq zəkanın, hətta istənilən zəkanın xəstəlik olduğuna əminəm. Fikrim qətidir. Amma bunu da bir dəqiqəlik kənara qoyaq.

Mənə bir şeyi deyin: axı niyə bir vaxtlar bizlərdə deyildiyi kimi «ən gözəl və ən ali»nin bütün incəliyini anlamağa ən çox qadir olduğum anlarda sanki qəsdən məhz bu anlarda artıq anlamağı kənara qoyub, elə bekara hərəkətlər edirdim ki, elə bil… əslində, bir

kəlmə ilə desək, yəqin elə hamının etdiyini edirdim, lakin niyə bunu məhz etmək lazım olmadığını ən çox dərk etdiyim vaxtda edirdim? Xeyirxahlıq və bu «ən gözəl və ən ali»ni nə qədər çox dərk edirdimsə, içimdəki girdabın daha da dibinə batırdım, hətta orda batmağa belə qadir duruma gəlirdim. Amma əsas odur, bütün bunların mənim içimdə olması elə bil təsadüf deyildi, elə bil məhz bu cür də olmalı idi. Elə bil bu xəstəlik və ya azar deyil, mənim ən adi vəziyyətim idi, hətta sonunda bu azarla mübarizə aparmaq həvəsimi də itirdim. Axırda da elə oldu, az qala bunun çox güman mənim adi vəziyyətim olduğuna inanacaqdım (ya bəlkə doğrudan da inanmışdım). Amma əvvəl, lap başda mübarizədə nə qədər əzab çəkmişdim! Başqaları üçün də belə olacağına inanmırdım, ona görə də bunu ömrüm boyu sirr kimi saxlamışdım. Xəcalət çəkirdim (bəlkə hələ də xəcalət çəkirəm); iş o yerə çatırdı ki, növbəti bir mənfur Peterburq gecəsində öz küncümə qayıdandan sonra bu gün yenə də güclü şəkildə kiməsə pislik etdiyimi dərk edib, olub-keçənləri artıq geri qaytarmaq mümkün olmadığını anladıqca gizli, qeyri-adi, biabırçı bir zövq alırdım, sonra daxilən gizli-gizli özümü yeyirdim, dişlərimlə içimi çeynəyirdim, beynimi o qədər mişarlayıb, o qədər sümürürdüm ki, sonunda bu ağrı biabırçı, lənətə gəlmiş şirinliyə, ən nəhayət isə ciddi həzzə çevrilirdi! Bəli, həzzə, ciddi həzzə! Sözümdə dururam. Elə ona görə deyirəm, görəsən başqaları da belə həzz ala bilirlər-